
AZƏRBAYCAN XƏBƏRLƏRİ

Uşağa qulluq müavinətinin verilməsi qaydaları dəyişir – 6 ay staj tələbi

Noyabr 17, 2026



Müavinət 2.7 dəfə artırılır, uşaqpulu isə yoxdur

Azərbaycanda uşağa qulluğa görə sosial müavinət almaq istəyənlər üçün ən azı 6 aylıq sosial sığorta stajı tələbinin qoyulması təklif edilir.

Bu yenilik Milli Məclisin noyabrın 17-də keçirilən plenar iclasında müzakirə olunan bir sıra məcəllə və qanunlara dəyişiklik layihəsində nəzərdə tutulub.

Bildirilir ki, yeni şərtin tətbiqində əsas məqsəd qısamüddətli və formal əmək müqavilələri bağlamaqla dövlət hesabına müavinət alınması hallarının qarşısını almaqdır.

Hazırkı qaydalara əsasən, bu müavinətin təyin olunması üçün minimum sosial sığorta stajı tələb edilmir.

Uşağa qulluq müavinəti nə qədərdir?

Hazırda bu müavinətin məbləği uşağın yaşından asılı olaraq dəyişir:

- **Uşağın bir yaş yarımınadək dövrü üçün aylıq 44 manat;**
- **Uşağın bir yaş yarımından üç yaşınadək dövrü üçün aylıq 28 manat.**

Bu məbləğlər sonuncu dəfə 2018-ci ildə artırılıb. Amma ölkədə hazırda neçə nəfərin bu müavinəti aldığı rəsmi olaraq açıqlanmayıb.

Son illər Azərbaycanda həm pensiya yaşı artırılıb, həm də əlillik statusunun verilməsi ilə bağlı qanunvericiliyə bir sıra dəyişikliklər edilib. Vətəndaşların şikayətlərinə görə, bu dəyişikliklər əlillik statusu almaq prosesini xeyli çətinləşdirib.

Rəsmilər isə atılan addımları bu sahədəki subyektiv amillər və qanun pozuntuları ilə mübarizə kimi əsaslandırıblar.

Nəticədə ölkədə pensiyaçıların sayında azalma müşahidə olunub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur